# TALIŞ MEŞƏSİNİN ŞAHI DƏMİRAĞAC

***Bu yazını Ümummilli liderimiz Heydər Əliyevin sözləri ilə başlayıram: «Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifələrdəndir».***

Azərbaycanın gözəl təbiəti son dərəcə zəngin, rəngarəng, misilsiz gözəlliyi ilə seçilən, uca dağları, geniş ovalıqları olan bir diyardır. Ölkəmizin cənub bölgəsində bitən dəmirağacını göstərmək olar. Bu ağac Azərbaycan torpağının yetirdiyi nadir incisidir.

Dəmirağacı Azərbaycanın III dövr Relikt bitkisidir. Azərbaycanda Talış dağlarının mərkəzi və cənub hissəsində, İran İslam Respublikasının Xəzər dənizi sahillərində rast gəlinir. Dəmirağacın elmi adı latınca Parrotia Persica adlanır və Talış meşələrinin Şahı adlanır.

Dəmirağacı subtropik və ya isti mülayim zonada, dəniz səviyyəsindən 700 metrdən yuxarı dağlarda bitir. Təxminən 200 ilə yaxın yaşayır və dəmirağacın hündürlüyü 20-25 metrə çatır. Əsasən Azərbaycanda Astara, Lənkəran, Lerik, Masallı və Yardımlıda təbii halda bitir. Möhkəmliyinə görə geniş istifadə olunur. Fevral-mart aylarında çiçəkləyir, pəhrələrlə çoxalır.

Bu ağac ümumdünya «Qırmızı kitab»ına düşüb. O dəmir kimi möhkəmdir və suda batır. Təqribən 18-20 milyon il yaşı var. Xəstəliklər və ziyanvericilərə qarşı davamlıdır. Qabıq örtüyü boz rəngdə və parıltılı olur, bəzi yerləri qırmızıya çalır. Qabığı başqa ağacların qabığına nisbətən nazikdir. Yağışdan sonra özünəməxsus gözəlliyə bərq olur. Yarpaqları töküldükdən sonra çiçəklənməsi başlayır və aprelin əvvəllərində başa çatır.

Respublikanın cənub-şərqində və İran İslam Respublikasının Xəzər dənizi sahil boyunda yerləşən ərazilərini əhatə edir.

Materialın möhkəmliyi səbəbindən bir vaxtlar maşınqayırmada və toxuculuq, xalçaçılıq dəzgahlarının düzəldilməsində istifadə olunubdur.

Dəmirağacın bitməsi üçün normal iqlim və qrunt şəraitin olması vacibdir, belə ki, cəmi bir neçə ağac əkməklə böyük bir meşənin yaranmasına nail olmaq olar. Meşəçiliyin inkişafı, yəni süni meşə zolaqların yaratmaq məqsədi ilə dəmirağacın toxumları sentyabr ayının birinci yarısında yığılır, müəyyən temperaturda qurudulur, payızda əkilir və yayın əvvəllərində bitir.

Talış meşələrinin əsas xüsusiyyətlərindən biri də odur ki, yağıntının miqdarı il boyu bərabər paylanır. Yaz və yay aylarından fərqli olaraq payızda daha çox yağış yağır. Onu da qeyd etmək lazımdır ki, Talışın iqlimi Zaqafqaziyanın digər subtropik zonalarından kəskin fərqlənir. Talış zonasında üzüm tənəyi əvvəllər ancaq ağaclara dırmaşdırırdı, ancaq dəmirağacından istifadə edə bilməyirdilər, səbəbi — üzüm tənəyi dırmaşmır — yanır. Meşələrdə sınmış və ya yıxılmış dəmirağacına rast gəlmək olmur, olarsa ancaq təsadüfən olur.

**HAŞİYƏ**

Azərbaycan dünyanın ən qədim sənətkarlıq və ticarət mərkəzlərindən biri olması, əlverişli coğrafi mövqeydə yerləşməsi ən qədim zamanlardan başlayaraq tacirlərin, səyyahların diqqətini özünə cəlb etməsidir. Böyük coğrafi kəşflər ərəfəsinə qədər şərqdə coğrafi biliklər çox yüksək olub. Belə bir dövrdə XIII əsrin əvvəllərində ərəb səyyahı Yaqut əl-Həməvi qiymətli soraq kitabını yaratdı. Səyyah Azərbaycan haqqında da olduqca qiymətli məlumatı oxuculara çatdırdı, Yaqut əl-Həməvi həmçinin Ər-Rumi ləqəbini daşımışdır.

Səyyah «Azərbaycanın məşhur şəhərlərindən biri olan Ərdəbil» haqda məlumat verərkən dəmirağacı haqda yazır və göstərir ki, bu şəhərlə Xəzər dənizi arasında sıx meşəlik vardır ki, yerli əhali bu meşələrdən dəmirağacı qırır, bu ağacdan kasa və məcməyi düzəldirlər. Yaqut Həməvi ümumiyyətlə Azərbaycanı bolluq diyarı, bağ-bağatlı ölkə kimi təsvir edir.



Dəmirağacının adı çox qədimdən çəkilsə də XVIII əsrin sonlarında botanika alimlərinin diqqət mərkəzində oldu. Elm aləmində ilk dəfə 1784-cü ildə botanik-səyyah Qmelin tərəfindən qeyd edilmişdir. O vaxtdan ingilislər və almanların Talış meşələrinə marağı artmağa başlamışdır. Dəmirağacları təyyarəqayırma və kosmik gəmilərində də istifadə olunur. Dünyanın çoxlu alimləri o cümlədən Azərbaycanın görkəmli alimlərinin dəmirağacının qorunması və əkilib-artırılması diqqət mərkəzində olmuşdur.

Böyük coğrafiyaşünas-təbiətşünas alim akademik Həsən Əliyev dəmirağacın qorunmasına xüsusi diqqət yetirmişdir. Respublikamızın ərazisində dəmirağacı Astara, Lerik, Lənkəran, Masallı, Yardımlı rayonların ərazinsində geniş yayılmışdır.

Talış dağlarının şimala doğru uzanan hissəsində və İran şimalındakı (Xəzərin sahil boyu) dağların dənizə baxan hissəsində də yayılıb.

Qeyd etmək lazımdır ki, Azərbaycan dövlətinin o cümlədən Talış meşələrinin vurğunu, uzun müddət təbiəti mühafizə cəmiyyətinin sədri olmuş akademik Həsən Əliyevin «Həyəcan təbili» kitabında Talış meşələrinin seyrəlməsini qeyd etmişdir. O yazırdı «Talış meşələri ölkəmizdə yeganə nadir ağaclar diyarıdır.



*...Lənkəran zonasının meşələri də,*
*Suları da Milli Parka, qoruğa çevrilməlidir.*
*Talış meşələrində bir ağac da qırılmamalıdır».*

Hirkan qoruğu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21/XII-2005-ci il tarixli 234 saylı qərarı ilə yaradıldı. Milli parkın ərazisi 2008-ci il 23 aprel tarixli qərarı ilə genişlənmişdir. (Qoruq Hirkan Milli parkla həmsərhəddir). Hirkan qoruğu Azərbaycanın cənub-şərqində Lənkəran və Astara inzibati rayonların ərazisində yerləşir. Qeyd etmək olar ki, Milli park Talış dağlarının öz unikal təbiət kompleksləri ilə fərqlənən təbii ərazilərini əhatə edir. Hirkan Milli parkı 2004-cü ilin 9 fevral tarixində yaradılmış, ərazisi 40358 hektar təşkil edir və UNESCO-nun ümumdünya mədəni və təbii irsin ilk siyahısına daxil edilmişdir.

Buna baxmayaraq meşələr qırılır, yandırılır. Meşənin qırılması və yandırılmasının arxasında hansısa vacib sirr saxlanılır? Bəlkə də yanacaq problemidir.

Yanacaq problemini yetmişinci illərdə Ümummilli liderimiz, Azərbaycan KP Mərkəzi Komitənin birinci katibi olan Heydər Əliyev İrandan mavi yanacağın alınmasına nail oldu, gələn yanacağdan istifadə olunmağa başlandı. Bununla da meşələrin qırılmasının o cümlədən dəmirağacın da qırılmasının qarşısı alındı. Amma buna baxmayaraq meşələrə, əsasən dəmirağaclara biganə münasibət davam etdi. Əsas səbəb maddi mənfəət güdənlərin çox olması oldu.

İctimaiyyətə məxsus olan hər şey birdən həm rəsmi, həm də qeyri-rəsmi şəkildə «şübhəli şəxslərin əmlakına çevrildi. Dəmirağacın kəsilməsindən və daşınmasından büdcənin nə qədər qazandığı məlum deyil.

Yeri gəlmişkən 3 aprel 2015-ci il tarixində Cənub xəbərləri TV-nin bir xəbərini yadınıza salmaq istəyirəm.

Cənub bölgəsində nadir ağaclara qənim kəsilən təkcə Taleh Qaraşov deyil, hazırda Astara rayonuna rəhbərlik edən Qəzənfər Ağayev də Masallıda İcra başçısı işləyərkən bu rayonda 500-dən artıq ağacı məhv edərək yerində palma əkdi.

(H.Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva «Lənkəran işi»ni nəzarətə götürdü» qeyd edilir)

2021-ci ilin yanvarında Astarada baş verən yanğın qeyd etdiklərimizin davamı oldu. Yenə də meşələrin qırılması, dəmirağacın məhvi baş verdi.

Əvvəla meşələr həyat üçün ən vacib olan oksigenlə yer kürəsini təmin edir. Meşələr müxtəlif xəstəliklərin müalicəsi üçün lazımi otlar, çiçəklər yetişdirir, dağıdıcı küləklərdən qoruyur və s.

Meşələr qırıldıqca, əkin sahələri arasında qoruyucu zolaqlar yox olduqca, meyvə ağacların məhsuldarlığı azalır, bitki xəstəliklərin artmasına səbəb olur.

Son illərdə dövlətin təbiətə münasibəti məsələsi mühüm iqtisadi və sosial vəzifələrdən biri olmuşdur. Bunun üçün tədbirlər planı hazırlanır və nəzarət güclənir. Görülən işlər ətraf mühitin qorunmasına yönəldilir.

Əfsuslar olsun ki, Azərbaycanda belə qiymətli olan dəmirağacı bir qrup adamlar tərəfindən kütləvi şəkildə «mənimsənilir», «yandırılır» və nəticədə bugünkü acınacaqlı vəziyyət alınır.

Hesab edirəm ki, əlaqədar təşkilatlar nəsli kəsilmək təhlükəsində olan Talış meşəsinin Şah ağacı — dəmirağacın qorunması qayğısına qalacaqlar.

***Nazim ƏRƏBOV,***
**AR Jurnalistlər Birliyinin, Alman-Azərbaycan Cəmiyyətinin üzvü, Fəxri limançı, BBDT limanının əməkdaşı.**




